# Pedaqoji fikir tarixində akademik Mehdi Mehdizadə irsi

**Əlibala Zal oğlu Zalov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** alibala_zalov@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., Y.A. Allahverdiyev

**Açar sözlər:** məktəb, pedaqoji, tərbiyə, tədqiqat, təhsil, elm, tarix, təşkilatçı
**Ключевые слова:** школа, педагогика, воспитание, исследования, образование, наука, история, организатор
**Key words:** school, pedagogical, upbringing, research, education, science, history, organizer

İyirimi ilə yaxındır ki, "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" ilə bağlı onlarca yazıya imza atmışam. Hər bir yazımda məktəb və pedaqoji fikir tariximizin qaranlıq dövrlərinə işıq salanlar haqqında fəxrlə yazmış və şərhə çalışmışam. Maraqlandığım müəlliflərin tədqiqatına ədalətli və obyektiv şərh verməyə çalışmışam. SSRİ dövrünün respublikamızdan olan dörd pedaqoq- akademikindən biri – akademik Hüseyn Mustafa oğlu Əhmədovla çox həmsöhbət olmuşam. Öz həmkarları haqqında həmişə ədalətlə danışan akademik H.M. Əhmədov "Ay bala, akademik Mehdi Məmməd oğlu Mehdizadədən olmaz. O keçmiş SSRİ-də xüsusi hörmətə layiq elm adamı idi. SSRİ PEA-da hamı onunla hesablaşırdı" deyir.

Keçmiş SSRİ-nin maarif naziri akademik M.A.Prokofyev isə belə deyirmiş: "Akademik Mehdi Məmməd oğlu Mehdizadə pedaqogika elminin korifeylərindən biri, maarif quruculuğunun görkəmli təşkilatçısı kimi tanınmışdı".

Düzü bu sətirləri oxuyarkən məndə bir qürur hissi baş qaldırdı. Axı o da mənim doğulduğum, boya-başa çatdığım torpağın övladı olub. Mənim su içdiyim məşhur "Çinar" kəhrizindən su içib.

Akademik M.Mehdizadə 1903-cü ilin yanvar ayının 5-də Cəbrayıl rayonunun Daşkəsən kəndində dünyaya göz açmışdır. Onun haqqında yazılmış məqalələrdən birində oxuyuruq:" Pedaqogika elminin görkəmli nümayəndəsi, tanınmış ictimai xadim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor M.M.Mehdizadə təhsilimizdə bir mərhələdir". Onun öyrənilməsi, tədqiqi, idarəetmə metodlarının tətbiqi xalqımıza çox xeyir verər. O, bu gün də öz əhəmiyyətini itirməyən, uzun illər xalq maarifi işçilərinin stolüstü kitabı olan, pedaqoji ictimaiyyətin diqqət mərkəzində dayanan "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" (1958), "Məktəbdə təlim-tərbiyə işinin yenidən qurulmasının bəzi məsələləri" (1961), "Azərbaycan xalq maarifi yeni yüksəlişdə" (1967), "Azərbaycanda xalq maarifinin sürətli inkişafı" (1980), "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" (1982) kimi bir sıra sanballı monoqrafiyaların müəllifi olmuşdur.

Əsərlərinin adından bəlli olduğu kimi, o, həm maarifimizin təşkilatçısı və qurucusu, həm pedaqogika tarixçisi (əsasən Azərbaycan-sovet məktəbinin XX əsrin əllinci illərinə qədər dövrün tədqiqatçısı), həm də eyni zamanda bir nəzəriyyəçi-didakt kimi şöhrət tapmış və fəaliyyət göstərmişdir. Təkcə onu demək kifayətdir ki, 1946-cı ildən başlayaraq 1980-ci illərə qədər respublikanın xalq maarif sahəsində bir sıra məsul vəzifələrdə çalışmış, həmin müddətin iyirimi

üç ilini respublikamızın Maarif Nazirliyinə rəhbərlik etmişdir. Onun rəhbərliyi dövründə respublikamızın xalq maarifi coşğun inkişaf illərini yaşamışdır. Bu haqda onun həmkarları, həmdövrləri dəfələrlə demişdir. Akademik H.M.Əhmədovun "O, böyük alim, böyük insan idi..." məqaləsində oxuyuruq: "Akademik Mehdi Mehdizadə çox gözəl insan, pedaqoji elmimizin görkəmli nümayəndəsi idi. Fəxr edirəm ki, mən də Mehdi müəllimin yetirməsi kimi onunla qırx ilə yaxın bir müddətdə ünsiyyətdə olmuş, faydalı məsləhətlərindən bəhrələnmişəm. Mən Mehdi müəllimi 50-ci illərdən tanıyıram. O vaxtlar mərhum professorlar Ə.Seyidov, M.Muradxanov, M.Mehdizadə, V.İ.Lenin adına APİ-nin ümumi pedaqogika kafedrasında çalışırdılar... O, 1972-ci ildə mənim doktorluq dissertasiyama elmi məsləhətçi olmağa razılıq verdi. Həmin vaxtlar o, həm nazir kimi, həm də alim kimi keçmiş SSRİ miqyasında böyük hörmətə və nüfuza malik idi..." Akademik Mehdi Mehdizadə haqqında həm sağlığında, həm də vəfatından ( 1 may 1984-cü il) sonra dövri mətbuatda yüzlərlə yazılar çap olunmuşdur. Bu fikir həm respublika, həm də beynəlxalq pedaqoji mətbuatına aiddir. Keçmiş SSRİ PEA-nın vitse-prezidenti A.G.Xrinkova yazırdı: "Akademik M.M.Mehdizadə çox nadir istedada malik alim, müdrik el ağsaqqalı kimi SSRİ PEA rəyasət heyətində, akademiyanın həqiqi və müxbir üzvləri arasında böyük nüfuza malik idi".

O, Azərbaycan sovet məktəbinin həm ilk təşkilatçılarından biri, həm də ilk tədqiqatçılarından biri idi. Akademik M.M.Mehdizadə Azərbaycan sovet məktəbini aşağıdakı dövrlər üzrə tədqiq etmişdir. Birinci dövr: 1920-1927-ci illər; ikinci dövr: 1927-1931-ci illər; üçüncü dövr: 1931-1941-ci illər; dördüncü dövr: 1941-1945-ci illər; beşinci dövr: 1945-1955-ci illər.

Professor Əjdər Ağayev Mehdi Mehdizadə "dərslərindən" bəhrələndiyini minnətdarlıqla xatırlayaraq yazır: "M.Mehdizadə təhsilin məzmununun dövrün sosial, iqtisadi, elmi, texniki tələbatına cavab verməsinə xüsusi diqqət yetirərdi. O tədris planlarının, fənn proqramlarının dərsliklərin yüksək keyfiyyətlə, elmi-pedaqoji əsaslarla yaradılmasına, təhsil ocaqlarının dövlət sənədləri ilə vaxtında təchiz olunmasına həmişə səy edərdi..."

Müəllifin yazdığı kimi, təsadüfi deyil ki, onun fəaliyyətində dərslik yaratmaq fəaliyyəti ayrıca yer tutardı. Bu baxımdan qeyd etməliyik ki, onun həmmüəllifliyi ilə hazırlanmış iki hissədən ibarət "Pedaqogika" dərsliyi 1941, 1958-59-cu illərdə nəşr olunmuş və uzun illər bu sahədə yeganə dərs vəsaiti olmuşdur.

Akademik M.Mehdizadə 1958-ci ildə nəşr etdirdiyi "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" adlı əsərinin girişində məktəb tariximizlə bağlı olaraq yazır ki, keçmişdən bir miras olaraq bizə qalan, XIX əsrin ortalarına qədər əsas təhsil müəssisələri hesab edilən mollaxana və mədrəsələr xalqın maarif tələblərini ödəmirdi. O yazır: "XIX əsrin ikinci yarısında xüsusi ilə XX əsrin əvvəllərində Azərbaycanda xeyli inkişaf etmiş iqtisadi, ictimai və mədəni həyat şəraitində, artıq bu məktəblərə qarşı haqlı etirazlar və kəskin tənqidlər irəli sürülür..."

Müəlifin tədqiqatlarından belə bir qənaət çıxır ki, bu cür tənqid və etirazların nəticəsində, eyni zamanda rus məktəblərinin çoxalması sayəsində mollaxanaların sayı xeyli azalmış, bir qismi isə "ana dili məktəbləri"nə çevrilmişdir.

Akademik M.Mehdizadədən sonrakı tədqiqatçıların da (akademik H.M.Əhmədovun "XIX əsr Azərbaycan məktəbi" adlı fundamental əsəri) qənaəti təsdiq edir ki, o haqlı olaraq rus məktəbləri Azərbaycanda XIX əsrin 30-cu illərindən, yəni Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra təşkil edilməyə başlamışdır..."

Bununla bərabər, o, haqlı olaraq çarizmin məktəb siyasətini mürtəce hesab edir və yazırdı ki, Azərbaycanda məktəb şəbəkəsi olduqca yavaş inkişaf edirdi. O, sovet rejiminin kəshakəs vaxtında ehtiyatla olsa da, yazırdı: "Rus məktəbləri açmaqla Azərbaycanda çarizm ruslaşdırma

siyasətini yeritmək məqsədini güdürdü… Bu məktəblərdə gənc fəhlə və kəndli nəslinə tərbiyə verməkdən artıq onu… burjuaziyanın (oxu Rusiyanın - Ə.Z) mənafeyi üçün işləməyə alışırdılar".

Axı hələ XIX əsrdə Azərbaycanın M.F.Axundov (1812-1878), S.Ə.Şirvani (1835-1888), H.Zərdabi (1837-1907) kimi qabaqcıl adamları rus məktəbləri qarşısında qoyulan mürtəce vəzifələrə baxmayaraq, bu məktəblərdən xalqın mədəni inkişafı məqsədilə istifadə etməyə çalışırdılar. Onlar rus məktəblərinin mollaxanalardan müqayisə edilməyəcək dərəcədə üstünlüklərini açıq gördükləri üçün xalqı övladlarını bu məktəblərə qoymağa çağırırdılar.

Biz bu fikirləri də M.Mehdizadənin tədqiqatlarından götürmüşük. Biz bu kimi tədqiqatlardan bilirik ki, Azərbaycanda ana dilində məktəblər açmaq məsələsi XIX əsrdə, xüsusən həmin əsrin ikinci yarısında müzakirə mövzusu olmağa başlamışdı. Mehdi müəllim yazırdı: "Tək-tək də olsa hələ XIX əsrin 70-ci illərindən Azərbaycanın şəhərlərində ana dilində məktəblər açılırdı. S.Ə.Şirvaninin 1870-ci (daha dəqiqi 1874-cü ildə - Ə.Z) illərdə Şamaxı şəhərində, M.T.Sidqinin 1890-cı illərdə (əslində 1892-ci ildə - Ə.Z), Naxçıvan (?- Ə.Z) (düzgünü əvvəl Ordubadda sonra isə Naxçıvanda) şəhərində irticaya qarşı mübarizədə böyük fədakarlıqla açdıqları və bir neçə il yaşatdıqları məktəblər məhz ilk ana dili məktəbləri olmuşdur".

Mehdi müəllimin ilkin tədqiqatları haqqındakı fikirləri növbəti məqaləyə saxlayaraq onun haqqındakı bu yazını keçmiş SSRİ PEA-nın prezidenti M.İ.Kondakovun fikri ilə bitirirəm. O yazırdı: "Akademik M.M.Mehdizadənin pedaqogika elminin, pedaqoq alimlərin inkişafında, formalaşmasında böyük zəhməti, mühüm rolu olmuşdur". Şübhəsiz ki, bu kimi fikirlərin arxasında akademik M.Mehdizadənin şəxsiyyəti, elmi, idarəçiliyi, pedaqoji ustalığı dayanır.

**Məqalənin aktuallığı.** Azərbaycan məktəb və pedaqoji fikir tarixinin formalaşması və inkişafında akademik Mehdi Mehdizadənin böyük rolu olmuşdur. O, həmçinin respublikamızda pedaqogika elminin korifeylərindən biri olmaqla, maarif quruculuğunun görkəmli təşkilatçısı kimi tanınmışdır. Məqalədə onun zəngin həyat yolu və elmi yaradıcılığının bəzi məqamları araşdırılır ki, bunu da müasir pedaqoqlarımız üçün dəyərli elmi mənbə hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə akademik M.Mehdizadənin həm maarifimizin təşkilatçısı və qurucusu, həm pedaqogika tarixçisi, həm də bir nəzəriyyəçi-didakt kimi elmi fəaliyyətinin hələ də tam tədqiq olunmayan bəzi məqamları araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M.M.Mehdizadə. Məktəbdə təlim-tərbiyə işinin yenidən qurulmasının bəzi məsələləri. Bakı, 1961.

2. M.M.Mehdizadə. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı, 1980.

3. M.M.Mehdizadə. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, 1982.

**А.З. Залов**

## Наследие академика Мехди Мехдизаде в истории педагогической мысли

### Резюме

Академик Мехди Мехдизаде сыграл большую роль в становлении и развитии истории школьной и педагогической мысли в Азербайджане. Он также является одним из ведущих ученых в области педагогической науки в нашей стране и известен как выдающийся организатор образовательного строительства. В статье рассматриваются некоторые из основных моментов его богатого образа жизни и научного творчества, а также исследуются некоторые из его научной деятельности как педагогического историка и теоретика.

**A.Z. Zalov**

## The legacy of academician Mehdi Mehdizadeh in the history of pedagogical thought

### Summary

Academician Mehdi Mehdizadeh played a great role in the formation and development of the history of school and pedagogical thought in Azerbaijan. He is also one of the leading scholars of pedagogical science in our country and is known as an outstanding organizer of educational construction. The article examines some of the highlights of his rich way of life and scientific creativity, while also exploring some of his scientific activities as both a pedagogical historian and a theorist.

**Redaksiyaya daxil olub:** 31.01.2020